ülüklənmək : qollanmaq. budaqlanmaq. pürçəmək. pöhrələnmək. ağaclar ülükləndi.

ülüqlü : xoşbəxd. talehli. buyruqlu. qismətli. bəxdi açıq.

ülülü : ülüşlü. paylı. bəhrəli.

ülümək : islatmaq. yaşadmaq. şehətmək. **üldür**: islaqdır. şedir. **ülüsü azdı**: şehi azdır.

ülüş : **1**. bölüş. bölüm. bölünən. payış. pay. buyruq. qismət. ülü. üləş. üləşik. - bu sizin **üləşizdi**. - bu bölgənin **üləşini üləştirin**, daşıyın. **2**. qonaq payı. qonşu payı. ayilənin ehtiyacları dışında, qonaq, qonşu üçün ayrılan, saxlanan pay.

ülüşmək : paydüşmək : buda bizə ülüşüb pay düşdi.

ülütmək : yülütmək. yolmaq. qırmaq. təmizləmək.

ümbə : arxa.

ümidvarlıq: umuca. umutlu bəkləyiş.

ümit : (muyuş. umuş. uyuş). güd. güdü. umanc. umdu. ümitli. umuq. umuş. bəklənti. dəstək. dayanaq.

ümıtıp$_4$: unudub.

ümitli : umur. umar. umdu. ümit.

ümlük : iç sözlər.

ümüd : **ümit**

ümüdsüz : içi qara. içqara. üzgün.

ümüdvar : umucu.

ümür : meh. şeh. duman. buxar.

ümürləmək: dumanlamaq. şehləmək. buxarlamaq.

ümürsin: sulu. yetənəkli. bitənəkli. bolluq. gurluq.

ümütlənmək: xiyallanmaq: yoravmaq. yoralamaq. diləmək. dua edmək.

Ün : **1**. səs. ağız (> avaz). **2**. şöhrət. tanıqlıq. adAQ. adlım. **ün qazanmaQ**: adaqlanmaq. adaq almaq. adlanmaq. **3**. bat. hız. çab. qudur. etki. **4**. san. sav. sava. **5**. avaz. çəkim.

ünal : **1**. ünəl. adlım. **2**. inal. xan soyundan gələn. soylu.

ünaymaq: xoşa gəlmək.

üncü : tə'mmüq. alada. anqqış. incəliksiz duy.

ündə$_5$: ünlə. çağır. cavab. səs vermək.

ündəmək: **1**. ünləmək. çağırmaq.səsləmək. çağırmaq. də'vətləmək. - eşitməzlərə, bu sözü söyləməqıl \\ xalqı qoqıl (ötür) dininə **ündəməqıl**. **2**. dua etmək.

ündəş : cinas. harmoni. harmoni qanuni: ündəş zanğı.

ündəv : adlı. məşhur.

ündü : məşvərət.

Ündüci ünqdüc. carçı.

ündüç : çığıran. bağıran. səsləyən.

ündüçi : muşavir: məşvərətçi.

ünəl : **1**. **ün-al**. adlım. **2**. inal. xan soyundan gələn. soylu.

ünğərmək$_{14}$: qazmaq.

ünğmə$_{14}$: qəbir.

ünqüq həncərə ünqüq başı: boğaz başı.

ünləmək: çağırmaq.

ünlü : ünal. adlım. adalan. adaldı. adalır. adalmış. adanır. adı anılan. adı duyulan. adın. adıqdı. adıqlı. adıvar. angin. anılan. anlı. anqın. anqış. aqmıq. atış. çava. çavaş. məşhur. öqtəm. sanlı. soylu. soysal. tanınan.

tanınmış. üqə. üygə. öqtəm. öğtəm. yergin. ağmıq. çavaş. carlı.ağızlı-burunlu adam:. şəxsiyyətli adam. gür səsli. səsini duyuran.

ünmaq$_4$: yuxlamaq.

Ünöv : toxdam. qərar. **biçimli ünüv**: qarşılıqlı danışıb biçib söz almaq.

üns : əsəvənlik. diqqət. təvəccıh. üşüq. diqqət. əsəvənlik. asavanlıq.

ünsalmaQ: ad qazanmaQ. ad çıxarmaq. ad bağlanmaQ. ad olarAQ.

ünsiyən$_8$: (**m** = **n**) < ummaq dadağan.

ünüşmək$_{14}$: yarışmaq. çalışmaq. mücadilə etmək.

üpdük : yumaQ. sümək.üpürdık: pürz. üpüri: yılmanAQ olmayan.

üpərtmək$_{14}$: ürpərtmək. şişirmək. tikən-tikən durmaq.

üpürcük$_{14}$: üprək. ürpək. saçaq. püskül.

üpür-çüpür: yığrık. əpləm-əpləm. üpür-süpür.

üpürdik: pürz.

ür$_{3.7.13}$: or. ör: örə$_9$. örüş. ürləş. yokuş. şiş. qalxık. ürprüş: yellik. şişik çıxış. götəriv. uca. qala. topluq. toplum. çox. ürdə$_{13}$. çoX öncə. əsgi. ür deyil: çoXdan deyil. qısa sürə öncə. ürdən bəri: əsgidən bəri.

ürcə : vaxsız sözün ürcə söyləmək.

ürcəh : meyilli.

ürç : rəğbət. istək.

ürdügər$_5$: üstün.

ürə : dik. ürə quruq.

ürəgi suli: özünə güvənli. mütməin.

ürəgir : bolluq. bərəkət. ürətgənlik.

ürək cürət. cəsarət ürək tapıp danışa bilmədi. ürəkləndi ağzına gələni danışdı.

- **ürəy almaq**$_{13}$: çəkinmək.
- **ürəyi ağzına gəlmək**: çox qorxmaq. urəyi qopmaq. çox həyəcanlanmaq. ürəryi hopmaq : qopdu ürəyi qorxusundan ürəyi gəldi ağzına.
- **ürəyi burmaq** : içi acımaq. qarışmaq. pozulmaq : onu öylə gördü ürəyi burdu. bir ürək buran hallar gördük ki. ürəyi burmuyub pis günə həsrət qalasan.
- **ürəyi hopmaq** : ürəyi ağzına gəlmək. çox qorxmaq. ürəyi qopmaq. çox həyəcanlanmaq.
- **ürəyi yarımaq**$_{11}$: mutlu olmaq.
- **ürəyi yox**: qorxaq.
- **ürəyin basmaq**$_{11}$: rahatlamaq. yüngüllətmək.

ürəkbağı$_{tarama}$: bağırdaq. kavayıq. beşigə bağlanan bağ ki beşik yırqalananda uşağın beşikdən düşməsin diyə işlənir.

ürəkburusı : qarın sancısı.

ürəkdamar : atardamar.

ürəkdəş: ağilik. ağürək. xoş niyyətli. ixlaslı.

ürəkdəşlik : aşnalıq. isnəşlik. yaxınlıq. isiklik.

ürəklə : batırğay. igitgin. ürəkli. atılqan. cəsurca. batırıl. mərdana.

ürəklənmək: batırsıramaq$_8$. güclənmək.

ürəklənmək: cürətlənmək. satlanmaq. qalxınmaq. qoğzanmaq. batınmaq. qudranmaq. təpgilənmək. təhrik olmaq.

ürəkli : ağşıt. iqşit. igşit. yiğit. baqatur. gözüqara. cəsur. ürkməz. qorxusuz. batırğay. igitgin. atılqan. cəsurca. dəmli. cəsur. qeyrətli. ürəklə. mərdana.

ürəlmək: inkişaf. böyümək.

ürəmək$_{15}$: şişmək. **"qorqmaq"** bu fe'lin başqa biçiyidi.

ürəmiş : ürətilmiş olan. ürün. döl. verim. əkin.

Ürən : > viran. boş. kövür.

ürətci : ürtəc. jeneratör.

ürətgən : cağımda. yaratıcı. yapıcı. yaparlı. yapar. olumlu.

ürətgənlik : **1**. uğış. anlayış. zəka. **2**. ürəgir. bolluq. bərəkət.

ürətilmiş : yapınc. yapıncaq. yapılmış. dəb. mə'mul.

ürətim : doğurmaq. törətmək. öndürüş. yasamaq.

ürəyiş : örçüm. gəlişim. böyümə.

ürf : yola. adət. usul. ərkan.

Ürgənci : **"ürgənc"** bu şəhirdə toxunan bir çeşit parça **"ürgənc' 'xivə"** xanatının şəhərlərndən biridi. bu parça **"xayuq"** və **"xivə"** adıylədə tanınmışdır.

ürkana: anqav. mönq. sadə. inancank.

ürkək : **örkək**. **hürkək**. (. <> **q**) **qorxaq**. yilgin. yılmış. bezgin.

ürkmək : abımaQ. gizləmək. sAQlamaQ. örtmək qorxmaq (**ürk** = **qork**)$_{çirişçiyan}$.

ürkməmək: meyl etmək. yaraşmaq. yAQışmaq.

ürkməz : qaçmas. qaçmaz. qorxmaz.

ürkü : ürk. ürkülük. ürküc. ürküdülük. qorxu. panik. vəhşət. vəlvələ. tirör. dehşəh. çəkincə. həyəcan. toxuntu. - el içinə qorxu. ürkü düşdü. - xalq birbirinə toxundu, ürküdülük oldu. çaba. coşqu. sağsa.

ürküdən : yıldırqan. yıldıran. qorxutan. şaşalı. göstərişli.

ürkülük : təhlükə. qarşıqlıq.

ürküşük: narazılıq.

ürküt : **ürküt**. ürkütücü. qorxudan.

ürkütücü : irkit. ürküt. yıldır. yıldıran. yaldıran. yəldirən. yeldirən. yıldıran. şişirdən. göstərişli. heybətli. qorxulu. şiddətli. gözüqara. qorxusuz.

ürküzmək: 1. qorkuzmaq. 2. bitirmək. cücərtmək. 3. hürdürmək. 4. püfləmək.

ürq : **ürk**. ürkü. dehşəh. qorxu. çəkincə.

ürqan : qıvılcım. əxgər.

ürqməz : **ürkməz**. ürəkli. cəsur. qorxusuz.

ürqüc : **ürgüc**. körük. dəmirci qörüğü.

ürqütücü: **ürkütücü**. ürküt. qorxudan.

ürləqiş$_{4}$: pomp.

ürlü$_{9}$: **ürlüklü**$_{9}$. sürəkli. əbədi.

ürmək$_{tarama}$: **1**. üvürmək$_{tarama.}$ hürmək. üfürmək. üfləmək. püfləmək. püləmək. - zırrına **ürüp** hamını oyatdı. - ovsun oxuyub **ürdi**. - issini **ürüb** soğud. - qoyunu qıçından **ürüb** soyarlar. **2**. qaldırmaq. şişirmək. ayırmaq. seçmək: üründüklərizdən iki ürüng göndərin xan qulluğuna. 3. urunmaq. şişmək. bitmək. bitişmək.

ürp'k$_{14}$: saçaq.

ürpək : ürpərmiş. dik qalan: ürpək saçlı çirkin üzlü.

ürpələşmək : qaynaşmaq. dəbəşmək : xalq ürpələşdi qoşun ürpələşdi.

ürpəmək: çıxmaq.

ürpənqləyu$_{14}$: təxminən.

ürpərmək : (< **ür**. **ül**: uca. ulu) (< **ür**: **ör**. **örə** durmaq şiş. qalxık) yellənmək. şişmək. türpərmək. titrəmək. ülpərmək tamam tukləri ürpərdi. səksənmək. dişginmək. şaşmaq.

ürpərmək$_{14}$: pürçüklənmək. pürçərmək. qıvrışmaq. büzüşmək.

ürpük : əriş ucları. saçAQ. pürçük. avnuk. yumşAQ.

ürsüz$_{9}$: **ürlüksüz**. keçici. əbədi olmayan.

ürtəc : ürətci. jeneratör.

ürü : düşüm. hasıl. bərə. taypa. ulus.

ürük : süregen, daimi.

ürükmək : çoxalmaq. özəlliklə çibanın sıçrayıb çoxalmağına deyilir.

ürüq : **ürük**. **ur**. **ür**. **ör**. **or**. **uca**. **uzaq**. **uzun**. dərin. geniş. çox. – **ürük** sözün qıssası. – **ürük** gedən, gec də qalsa, uz gələr: ağıllı qayıdır. – **ürük** gedib uzuq gələsən: dərinləşib, ağllanasan. – **ürük** uzatı: uzun sürə.

ürülmək$_{14}$: qabarmaq. şişmək.

Ürümək : ulumək: hürmək. ulu səslənmək. ululdamaq.

ürün : düşüm. törün. törə. ürə. tuxum (< **töküm**). hasıl. döl. verim. əkin. ürəmiş. ürətilmiş olan. örün. düşüm. hasıl.

üründəmək : ürüləmək. seçmək. düzmək. çinləmək. - tanrım yalacları kişilər içindən **ürün qıldı** (lədi). - anları **ürünləyib** düzdülər.

üründü : elçi. seçgin. seçilmiş. nümayəndə. - **üründü** iyidlər. - **üründü** pəhlivanlardan Buğa xan. - ol "qırxların" **üründüsüydü**. - el **üründüləri,** ustazlardan$_{tarama}$, **üründülərdən** tutuldular. - **üründü** çərilə doğruldular. - elin **üründüləri,** iyiləri toplandılar. **üründü** saltar (salt + ər > sərdar). - o el **üründüsü** böylə söylədi ki.

üründük : verimli. seçgin. güzidə. gözdə.

üründüləmək : iyisin. arısın seçmək. düzmək.

üründüləmək : qılavuzlamaq. yöndərmək. göndərmək.

ürüng̃ : (< **ürmək**: seçmək). **1**. ürün. üründü. elçi. seçgin. nümayəndə. : el ürüng̃lərin: ürünləri. devlət ürüni. **2**. **12**.**14**: ağ. **3**. urunq$_{yenisey}$: göy. parlayan. ağ. tüng̃qərə. pəncərə. baca. parlayan. ağ. ışıq. açıq. yarumaq$_{yenisey}$: açılmaq. **4**. mənəviyyat. manəvi güc. **2**. ağ. arın. təmiz. pak. - **ürünqay**: ürüng-ay.

ürüsüz : ürün verməyən. düşümsüz. hasılsız. bərəsiz. sazlı (qamışlı) ürüsüz yerdə bitənlər.

üs : **ös**. (üsmək. ötmək. ötgün. üsgün. yaşı üsgün. ötgün). düz.

üsarə : şırış$_{4}$.

üsdü-başlı: üslü-başlı > eslü-başlu$_{5}$. ayıq. hissili. ağıllı adam. ağras. ağır başlı. toplu$_{3}$.

üsənc : tənbəl.

üsənmək: tənbəllik etmək.

üsgük : **1**. < **yük**sük: zorluq. itlənən. şişən. **2**. < öt. ötgüc. ötkük:: itəlyən. ötdürən. **3**. az. xırda. balaca. **4**. ucluq.

üsküf : başlıq. örtük. börk. üsküflü quş.

üskürə : ağzı yayvan topraq qab.

üslənmək: bax > **üzlənmək**. genişlənmək.

üslü başlı: < eslü- başlu$_{5}$. ağıllı başlı. üsdü-başlı: ayıq. hissili. ağıllı adam .

üslü : **üzlü**. **üstlü**. şərəfli. e'tibarlı.

üslük : **üstlük**. bax > **üzlük**.

Üsmək : qalkmaq. yüksəlmək. çıxmaq. azmaq. öyrənmək. alışmaq. yetişmək.

üsnəmək$_4$: bəyənmək.

üst üsdə: dalba dal. tez-tez.

üstaqata$_4$: üst keçid.

üstalğan$_4$: ikinci əl.

üstə : **1**. üstək. üstün. qalib. fayiq. muzəffər. **2**. öhdə.

üstək : üstə. üstün. qalib. muzəffər. fayiq.

üstəki : öröki. örü$_{13}$: yukarı. iləri.

üstəl : dikəl. .

üstələmə: **1**. tətabüq. **2**. tə'kid.

üstələmək : **1**. yenğmək. yenmək. dözmək. üstün gəlmək. qələbə çalmaq. qatlanmaq. **2**. qarşı durmaq. dayanmaq. tə'kitləmək. **3**. üstünə almaq. öhdələmək.

üstəlik$_6$: hünər. ustalık. seberlik$_4$. severlik. sivrilik. önör$_5$.

üstəmə : art. zam. bahalaşdırma.

üsti : vəsilə. yol. araç.

üstörtü : arxalık. pencək.

üstü :.üzrə.arkan. arxa üstü .

üstü (**+**): iş üsdü. üzüsdü. başüsdə. ayaqüsdü.

üstübəc : ağlıq. ağlıq üstübəc ənnik-kirşan qadın düzgünlərindəndi.

üstük : örtük. duvaq. girdək. gərdək. şərşəv. çərşəv. toxuq$_{14}$.

üstün : aşkın. artıq. daşqın. ağdıq. aşırı. bəsli. aparan. aparıcı. ğalib. basımlı. vurqulu. hAkim. əzici.

üstün gəlmək: utmaq. yenmək. yemək. qazanmaq.

üstün : **1**. situn. dirək. **2**. üstə. üstək. yeğin. fayiq. qalib. muzəffər.

üstündən: üst aşır.

üstünqü : üstün gəlmə. üstə çıxma. mərtəbə atlama. dərəcə.

üstünlük : gözəllik. göz alıcılıq. qöy.

üstünlük: başarı. iyqilik. yetiklik. yetişkinlik. yolungi. yutuq. utqu. utuk. ütük. yetik. yetişlik. şuvluluq. ağıklık. talan. unğış$_3$. bəslik. talan. ərgi. birincilik. ərişmə. ğalibiyyət. müvəffəqiyyət.

üstünü dəyişmək: çalşırmaq. dəyiştirmək.

üst-üstə: dalba dal.

üsün : övsün. yalpıldAQ. övısmək.

üsüş : ötüş. hərəkət.

üsyan : (< **üs**. **ös**. **os**.). qozğalan. topalan.

üşəgəlmək: üşüşmək. toplanı gəlmək. toplanıvermək.

üşələmək : kişələmək. kiş diyə qoğmaq.

üşəlmək: uşalmaq. oğulmaq.

üşəmək : yığışmaq.

Üşənc : (< **üşümək**: yığılmaq. qısılmaq. üşənmək çəkinmək. tənbəlləşmək).tənbəl

üşəndirmək: qorkutmaq. xofdurmaq. usandırmaq. utandırmaq. çəkinmək. qorkmaq (gözündən üşənür).

üşəndirmək: usandırmaq. utandırmaq. çəkindirmək. qorxutmaq.

üşənən.: iringən:.

üşəng : üşənc. tənbəl. təntih.

üşəngəç : yerinir. durağan.

üşəngək: **üşəng**. **üşəngən**. ərincək. irincək. yalkav. tənbəl.

üşəngən : tənbəl. çox üşəngən.

üşənmək 1) : **1**. tədirgin olmaq. üzülmək. rahatsızlanmaq. ağırşaqmaq. sıxılmaq. qorxmaq. bıqmaq. küsmək. qısılmaq. çəkinmək. tənbəlləşmək. **2**. pərhiz edmək. **3**. usanmaq : nədən üşəndin. kimdən qaçdın. yel əsməklə dağ üşənməz. **4**. oyçanmaq$_9$: fikirləşmək. **5**. çəkinmək. tənbəllik gəvşəklik göstərmək.

üşənmək 2) : arlıq. ərinmək. tənbəllik. şəkkeləmək. şəhlənmək. usanməq$_{kiriş}$. utanmaq.

üşənmək: üşünmək. üğşünmək. uvşinmək$_6$. çəkinmək.

Üşərmək: yığışmaq.

üşiklik : tapkırlık.

üşiləmək: yelləmək.

üşiniş$_4$: usınc$_4$. pişnəhat. də'vət.

üşkə$_9$: dəlgi. burqu. burma.

üşki $_8$: burği$_8$. deşən. direl. mətə.

üşmək : **1**. yığışmaq. toplaşmaq. yığışmaq.birikmək. **-** üstünə **üşmək**. **2**. şığımaq. yügürmək. yumulmaq. cumulmaq. çullanmaq$_1$. **-** üçü birinin üstünə **üşdülər**: çuldular.

üşüq : üns. diqqət. əsəvənlik. asavanlıq.

üşümək : **1**. üyşirmək < **üyş**: yığılmaq haləti. yığışmaq. üşünmək. qorxmaq. çəkinmək. ayazlamaq. **2**. axışmaq. hicum edmək: uşunup titrəyə düşdü. bəlanın ağrısı başına üşdü. yörəsinə üşdülər.

üşünmək: **üşən**mək. **üğşün**mək. **uvşin**mək$_6$. çəkinmək.

üşür : yığ : cinləri üstünə üşür.

üşürmək : üşüşdürmək. yığmaq. bilətmək birikdirmək. dil üşürmək: hamı bir ağızdan bir sözü deməktoplamaq. üsdəmək. üsdələmək. **-** ağız **üşürmək**: söz birkin, ağız üşürün, əl bir edin.

üşüşmək: uşuşmaq. yumulmaq. hər tərəfdən bir yerə yumulmaq.

ütəbəy: ütə **-** bay. ötəbəy.

ütəmizçi$_6$: sütəmər.

ütən : **ötən**. keçən. müsri. – **ütən** kəsəl.

ütqən : **ütgən**. yürügən. yüğrək. yorqa. kəsgin. iti.

ütqərmək ütgərmək:. özgərmək.

ütqəzmək: **ütkəzmək**. (**ç** <> **s**) **ötkəzmək**. keçirmək. ütmək. çapmaq (**ç** <> **s**) sapmaq. keçirmək. girdirmək. giritmək$_9$. – sapı iğnəyə **utqaz**.

ütqin odu$_6$ ütgin odu$_6$:. bibər. qurç (kəsgin) ötgir. iştik$_9$.

ütqir : **ütkir**. iti. ötən.

ütqüc : **ütgüc**. **ülgüc**. ustura. ütən pıçaq.

ütqündə: biçin. xərmən.

ütqür : ötgür. hızlı. səri. çabuq.

ütmə : sütül. fırıx. yaş taza buğda arpa noxudu qabığı sünbüldə ikən qılçıqları qılları ilə alov içinə atıb pişirib oğub yiyərlər.

Ütmək : **1**. yutmaq. üstəmək. aparmaq. **2**. otulmaq. utulmaq. üstbaşına yapışıq. üstbaşında olan pürçük qalıntıları qoparmaq. lütləmək. **3**. ütkəzmək. ötkəzmək. çapmaq (**ç** <> **s**) sapmaq. keçirmək.

ütrük : yalan.

üttar : dövlət.

ütük : diqqətli. itəkli. kəsik. ötən. utan. aparan. yetişlik. iyqilik. yetiklik. yetişkinlik. başarı. utuk. talan. yolungi. üstünlük. şuvluluq. itik. yetik. yetgin. uzman.

ütülmək : utulmaq. yenilmək. sınmaq. gutulmək. məğlub olmaq.

ütürgü : deşən. dələn.

ütürmək : deşmək. dəlmək.

üvey : (ugey$_{12}$: yox. özgərdən ək). **ügey** öyqə. ötqə. adqa.

üy : üyə. **1**. duraq. ev. **2**. buğun. bənd. məfsəl (diz. dayanqaq. üyə sümüyü). **3**. üzüv (bölük. parça). hica-altı üyəli səs. **4**. kuşAQ. boy. soy. nəsil. üyələmə: parçalamaq. hicalamaq. bölümlərin tanımaq. ağrabaların tanımaq.

üydələk:durAQ. yam. istirahət etmək. yoldaşlık etmək.

üydəş : törən.

üyələt : parçalat. parçalayan.

üyən : **1**. ilgəli. özünə bağlı. **2**. iyilik sevər. təmiz ürəkli.

üyəz : mığmığa. sivrisinək. at sinəği. eşşək sinəği. tatarcıq. büvələk. pəşşə.

üykürmək$_{14}$: haykırmaq.

üyqə : **üygə**. **1**. üqə. üğə. üqə. adalan. adaldı. adalır. adalmış. adanır. adı anılan. adı duyulan. adın. adıqdı. adıqlı. adıvar. angin. anılan. anlı. anqın. anqış. aqmıq. atış. çava. çavaş. məşhur. öqtəm. sanlı. soylu. soysal. tanınan. tanınmış. ünlü. yergin. **2**. iyi. yararlı. zərərsız.

üyqən : **üygən**. iyilik dolu. təmiz qəlbli.

üyləmək : üfləmək. püfləmək.

üymək$_{9}$: < ev. yığmaq > (üyşik$_{8}$. üyşirmək).

üyrüntü$_{14}$: seçgin.

üyşəmək: sürləmək. toplamaq. səməmək. cəməmək. üyşütüv. üyşmək. yığmaQ. qurumaQ. yığnamaQ. işəytiv$_{3\cdot7}$. köpərtmək. arttırmaQ. köpeytiv. öyşəmək. ev qurmaq. toplanmaq. çoğdamaq.

üyşik$_{8}$: yığık. öyöm$_{3}$. üyind$_{4}$. öyim$_{7}$. üyüm$_{6}$. todə > tudə.

üyşirmək: < **av** üyş: **av**cumaq. **av**uclamaq. yığlmaQ haləti. yığışmək.

üyşmək: üyşütüv. öyşəmək. ev qurmaq. qurumaQ. toplanmaq. sürləmək. toplamaq. səməmək. cəməmək.çoğdamaq. yığnamaQ. yığmaQ. işəytiv$_{3\cdot7}$. köpərtmək. arttırmaQ. köpeytiv.

üyşütüv: üyşmək. yığmaQ. qurumaQ. yığnamaQ. işəytiv$_{3\cdot7}$. köpərtmək. arttırmaQ. köpeytiv. öyşəmək. ev qurmaq. toplanmaq. çoğdamaq.

üytgə : ötə. başga.

üytgəmək$_{8}$: özqərmək. değişmək. değşirmək. köhnəlmək. ötünmək.

üytgəşik$_{8}$: $_{1}$. dəyişik. özgə$_{4}$. özgəçə$_{6}$. özgəşə$_{6}$. ayrıkşa. ayrımşa. bölək$_{9}$. $_{2}$. başqa. ulu. ali. yaxcı. örən yaxcı.

üytkəni : çünki.

üyük$_{tarama}$:

üyük$_{tarama}$: **oyuq**. **öyük**. **1**. təpə. gorkan. təpə ki içini qazdıqda əsgi tapıntılar çıxar. **2**. qorxuluq. oyuq. - üyüklər. tapıntı yerləri olmuşlar. key ulu gövdəsi san bir **ürüktür**. - iki ulu **üyüklər**. ortası alçAQlar. **3**. böcü. qorxuluq. qorxula$_{1}$. qoğurcaq$_{6}$. kösgük. küsgük. qaraltı. qarmaça. xoxucu.

üyüntü$_9$: < ev. yığıntı. kümə. kütlə.

üyür$_9$: < ev. sürü.

üyürmək$_{14}$: seçmək. tərcih etmək.

üz : **1**. yan. qarşı. - bu dirinti əsgərlər, mənim **üzümə** (yanıma) toplandılar. - düşman **üzünə** savaşa geddi. - hançı məhkəmə **üzünə** siz cavab verəcəksiz. - xan **üzünə** şikayətə geddilər. **2**. qapAQ. örtü. qaş. endek$_{ka}$. qarşı. ön. ös$_3$. öst$_7$. üst. bəniz. yüz. tös. sıray. çıray. önq. irənönq. menğiz. cüz. bit. bet$_9$ (üz bə üz: üz üzə: bet bə bet. üzün yansın: betin küysün). bənzər. yan. yanı. yali. mənqiz. yanaq. qoparmaQ. kəsmək. üzlüksüz$_5$: arasız. üzgüntü. tamaQ. yemək. - **üz dürmək**: üzünü burmaq asmaq qırışdırmaq. - **üz eyləmək**: göndərmək. həvalə etmək. - **üz olmaq**: zamin olmaq. boyun olmaq. - **üz tutmaq**: girişmək. quraşmaq. başlamaq. iradə etmək. istəmək. **üz vermək**: < öz vermək: ərk vermək. ixtiyar önəm vermək. - **üz yazan** : gəlinin üzün bəzəyən. donatan. - **üz yazma**: arayişqah. **3**. genişlik. açıqlıq. alan. meydan. - **üz** verisən astar istir. - **üz vermək**: meydan vermək. - **üzü yola** yumşaq. sıvat. həlim.

üzaq : **üzü ağ**. masum. günahsız.

üzaqı : **üz ağı**. **ağ üzlülük**. **1**. masumiyət. günahsızlıq. təmizlik. namuslu. **2**. başarı. bəcəri.

üzbə : üzgün. qızgın. dargın. darlanmış. sıxıntılı.

üzdara: xuttaraş .

üzdən : yöndən. cəhəddən. səbəbdən. nə üzdən belə dedi. nə üzdən düzəlməz işlərimiz.

üzə : təpə. tapa$_{14}$. tərəf. yönə. ona doğru. üzə.

üzəğ$_{12}$: üzəri.

üzələ gəlmək$_{14}$: xəbərdar olmaq. müttəli' olmaq.

üzən : **1**. dərə. çay yatağı. **2**. ağacın gövdəsi.

üzəngə : bax > **üzəngi**.

üzəngi gərmək: üzəngini dartmaq. sərtcə qarşı qoymaq. - saltərlər **üzəngi** gərib durdular. - **üzəngi** dartıb yola çıxdı.

üzəngi : **üzəngə**. yəhərdə otururkən, ayaq qoyulan, altı düz, u biçiyində olan halqa. arası açıq. qatnaşıqsız. uzAQ.

üzənmək: zülm edmək.

üzər yer : üst tərf: burdan üzər yerdə bir qala var.

üzəy : dərəcə. dərcə. aşama. paya. basamaQ.

üzgələ$_{11}$: yonqa. yontmaq işi.

üzgələmək$_{11}$: üzmək. qırmaq. təmizləmək. yontmaq.

üzgərə$_{11}$: qoyunların **sağılan** yeri.

üzgü : sıxıntı. tasa. qayqı. üzüntü.

üzgüc : **1**. üzücü. qorxutmaqla, yıldırmaqla bir şey əldə edməyə çalışmaq. şantaj. **2**. dikdator. zoraki. güclə, zorla işləyən.

üzgüclük: zorakılıq. zülmkarlıq.

üzgün : çösqün. çökgün. çökmüş. küsgün. düşgün. üzüntülü. hüzürlü. (# **coşqun**).

üzgün : göylü pozuq$_9$. pozgun. darqın. əzgin. içi qara. ümüdsüz.

üzgün : məhzun. bunalmış.

üziliş : soluq. tənəffüs.

üzləmək : **iz**ləmək. - bu bağları üzləyib gedəyin.

üzlənmə$_8$: nida (işarəsi). ünləm$_1$ bəlgəsi.

üzlənmək: genişlənmək. açıqlanmaq. alan, meydan, yer əldə edmək. yerləşmək. dabanlanmaq. oturmaq. kök salmaq.

üzlənmək: yalvarmaq. üz tutmaq. xahiş etmək. üz tutmaq.

üzləşirmək: gəlişdirmək. yayratmaq.

üzlü : sırtıq. çıxarcı. asan. asıcı. asıcıl. üzücü. mənfəətçi. üstün. qalib. uzlu: usda. bacarıqlı.

üzlü : üslü. şərəfli. e'tibarlı.

üzlü : soylu. dürüst. düz. namuslu.

üzlük : **üslük**. **üstlük**. **uz**luq. (**z** <> **d** <> **y**) **ud**luq. **uy**luq. **1**. üz gözə, başa əğinə geyilən bürgək, parça. təmizlik üçün paltarın üstündən geyilən paltar, önlük. iş örtüsü. pəçə$_{1}$. **2**. xuruş. duzluq$_{14.}$ əkmək qatığı. qaplama. dışlama. örtüm. örtük. örtmə. **3**. ürəyi gedmək. qarında üzülmə duymaq. – bir tikə tut, **üzlüyün** gedsin. **4**. ayağ üsdü, yüngül yemək. – atakişi **üzlük**. – dan **üzlük**. **4**. **üz su**yun, abı havasın, hal əhvalın sağlayan qoşullar, şərait, gərəklər. – qoy bir **üzlük** alıb, özünə gəlsin. **4**. quşluq. aralıq. səhərinən günortanın arasında yeyilən çörək. kolasyon$_{frans.}$ **4**. üzük. üzüklük. düşlük. düşüklük. aralıq. qopan. fasilə. iki şeyin arasında olan aralıq. antrakt. – oyunun birinci **üzlükündən** sonra. – üzgültük qılmadan vururdular. **4**. düşüklü. pozuqluq. dağqın. dağınlıq. xarablıq. – **üzlükə** uğramadan. – devlətrəin gəlişi, **üzüşü**: üzlüyü. – devlətlətlərin **üzlüyü**: dağılışı. **5**. zaman. vaxt. **6**. dövrə. zamana. mövsim. **7**. uğur. şans.

üzlüklü : üstlük.

üzlüncük: olağanüstü.

üzmək : **uz**maq. **uz**aqlaşdırmaq. pozmaq. qıymaq. muzayiqə etmək: kəsmək. qırmaq. yırtmaq. cırmaq ayırmaq. qoparmaq. qırmaq. süzmək$_{6.}$ qoparmaq. kəsmək. sıyırmaQ. sökmək çəkinməmək. soymaQ. sıyırmaq. uzatmaq. dartmaq. sürmək. incidmək. kəsəllətmək. h**üz**ürlətmək. xəstələmək. kəkəmək. naxoşlatmaq. soymaq. sıdırıv$_{7.}$ sıyrımaq. batil edmək. tə'til etmək. toxdatmaq$_{5.}$ yatırmaq. taratuv$_{4.}$

üzməz : davamlı. durmaz. yorulmaz. tükənməz. kəsməz. kəsmədən arasız. aravermədən. – yel üzməz çalır. – üzməz.

üznüsüz : tükənməz.

üzr : ozr: üzüntü.

üzrə : movzu.

üzsəmək: qoparmaq istəmək.

üztutmaq: girişmək. quraşmaq. başlamaq. iradə etmək. istəmək.

üzü bərk: sırtıq.

üzü salıq: kəkrəmsi. suratı asık. güvən verməyən. xoş qarşılanmıyan adam.

üzücü : sırtıq. çıxarcı. asan. asıcı. asıcıl. üzlü. mənfəətçi.

üzücü : yanqır. acı. tırajik.

üzüə : üzərinə.

üzük : **1**. səs. - **ündış**: ün = tavış (səs). **2**. uzAQ. hündür. - arası **üzük**: arası uzAQ. **3**. (otağ, alaçığ) çatı. üst. səqf. **4**. soy. quşaq. nəsil. **5**. parça. kəsim. bölüm. tikə. qırıntı. fraqment. **6**. yayıntı. yayaq. çav. çaldırı. çov. sov. sav. quv. şayiə. **7**. kəçip. həds.

üzükçü : çavçı. çaldırıc. çovçı. sovçı. savçı. quvçı. şayiəçi.

üzülən : ötkən. uzğan. keçici. keçən. çağlıq. müvəqqət. uzğğan$_{3.7.}$ ötən.

üzül-kəsil$_{8}$: ani. müvəqqəti.

üzülmə : sıyırma. incimə. sancınma: ürəgin sıyırması: ürəgin üzülməsi.

üzülmə : təəssür. düşüngü.

üzülmək: **1**. qayqırmaq$_{11.}$ - bu sözlərdən bizi çox **üzdüldük**. – tükənməyən mal olmaz, **üzülmüyən** devlət. **2**. üzüb gedmək. yayılmaq. qoparılmaq.– **üzücü** xəsdəlik: yoluğucu xəstəli. – ağrısı **üzüldü**: hər yanına dağıldı, ağırlaşdı. – çav **üzüldü** ki: xəbər yayıldı ki. – dağa çiğ **üzüldü**. **3**. qırılmaq. qopmaq. yoxsunmaq. – ip **üzüldü**.

üzüm : **üzümtü**. bir şeydən üzülmüş, qoparılmış parça. kəsim. bölüm. tikə. qırıntı. fraqment. - bir **üzüm** ət.

üzüntü : **üzümtü**. **1**. bir kiçik parça. qırıntı. **2**. tə'til. antırAQt. **3**. küyək. göyək. dərd. acı. yanıq. ıztırab. siqin. sıxın. sıxıntı. kədər. yas.

üzüş$_{3.7}$: ütüş. yarış.

üzüşmək: pozuşmaq. bir andı bağlantını pozmaq.

üzüt : **1**. oruğ. ruh. öz. tin. can. **2**. qaraltı. gəzəgən ruh. şəbəh. cinn. **3**. paltar yaması.

üzüv$_{11}$: şantaj.

V

var : (**v** <> **b**) **bar**. - **var olsun gücün**: var olsun çəmin. - **var yeməz** : xəsis.

varax$_8$: oğrax. dərdə dəyməyən. vasaqı: dəyərsiz.

varaq : mənzil. varılacaq yer.

varan : **1**. varlı. zəngin. **2**. sonuca ulaşan. ərən.

varavar$_8$: əşit. bərabər. birlikdə. **varavarlama**: bərabərləmə. əşitləmə.

varça : barça. varısı. bütün. tamam. həp. kamilən.

vardi-gəldi: bardı-gəldi$_8$. vurdi-gəldi. əyər. şayət. gərəkirsə. birdən vurdu-oldu.

var-gəl: var-ged.

varxam: veyran. bulaşıq. xarab. yıxıq.

varı : barı. hamı.

varidat : şeteldik.

varılacaq yer: məqsəd. mənzil. qonaq. qonut. qonuş.

varılan: varılan yer. varış. vargı. sonuc.

varım : varım. vargı. sərvət. mal. mülk.

varımlı: əvlilik çağına girmiş qız.

varısı : barça. varça. bütün. tamam. həp. kamilən.

varış : **1**. barlağ. barlap. təcrübə. **2**. görüş. oluş. ölğşiv$_{3.7}$. irişiv$_{3.7}$. yetiv$_{3.7}$. nəticə. sonuc. **3**. barça. ağıl. anlaq. anlaş. qursan. izən. qafa. baş.

varış : mənzil. varılacaq yer.

varışlı : mənzil.

varışmaq : yarışmaq.

varqı : **1**. varılan yer. sonuc. **2**. varım. mal. mülk.

varlanmaq : **badıramaq**: **bardamaq**.

varlı : bayıq. bayla. ağaman. əğəmən.

varlıq :**1**. varlıq. məvcudiyət. **2**. varlıq. baylıq. güclülük. mal. sərvət. qalın. zənginlik. gənc. barlık.bütünlük. **3**. əvrən. çəvrən. kayinat.

varmaq : ərmək. çatmaq. gedmək. varamaq. yetmək.bacarmaq.

varmay: varmaz. yeriməz.

varnamaq: bornamaq. barnamaq. bara oturmaq. şişmək. zənginləşmək.

varsa: işlər yerisə.

varsaq: **1**. > fərsəng. varmaq. barmaq. çatı ölçüsü. **2**. var olan. tapılan. bulunan. bulunabilən. mövcud. **3**. yatağan. kəsətura (> satur). - ulaşudur ana bulqar dağı. ki VarsAQ qavmının oldur durağı$_{hikmət.15.}$

varsayım: **1**. çəkim. çağım. çağlam$_{8.}$ təxmin. ayar. göz çağımiylə: çəkimiylə: dəngəsilə. **2**. hipotez. fərziyyə.

varsaymaq: fərz edmək.

vartaq$_{10}$: baliğ.

varya : çəkic. toxmaq.

vasvasa$_{8}$: xəyalı. uğursuz.

vava : (uşaq dilində) bubu. yara. baş.

vaz geçmək: < basıb keçmək. göz yummaq. yazmaq. açmaq. çəkilmək. aynamaq$_{4\text{-}5}$. oyun özgərtmək. çəkinmək. yumulmaq. qatınmaq. çönmək. dönmək. qaçınmaq. dönmək. çəkilmək. caymaq. burAQmaQ.

vellənmək: aylanq çaylanq. aylanış. gəzələnc. gəzim. iki bağa yeriyib. azacık gəzib dolanmaQ.

verdi : vergi. ölçü. miqdar.

verdi : cömərt. əli açıq. bağışlayan. ihsanda bulunan.

verdixan : vərdixan.

verdiş : bərnamə.

verəsiyə: başı soyuq. önəm verməyən. könülsüz. özənsiz. nisyə.

vergələli: çıxarlı. varlı.

vergi : **bərgi**. **birgü**. **1**. bacarıq. çıxar. yetənək. anığlığ. qabil. **1**. hidyə ehsan. buluğ. sədəqə. vergili: mühəssin. vergisiz: xəbis. yük. salğın. maliyat. **1**. xuy. yaratlış. özəlliq. **2**. salıq. salqın.xirac. nusum. verilən. ödənən nəsnə. **3**. alban. qənimət.

vergilətmək: becərmək. gəlişdirmək.

vergili : bacarıqlı. paxmu$_{10}$. usta.

veri : data$_{\textbf{latin}}$. bilgi.

verici : boşlu.

verilgən$_{6}$: amrAQ$_{9}$. düşgün. xumar. kuştar$_{5}$ (< düştər?).

verim : onuş. ürün. bərəkət. bolluq. döl. əkin. ürəmiş. ürətilmiş olan. veriş. vermə. bolluq. bərəkət. düşüm$_{9}$. gəlir. aslam$_{14}$. qazanc. randman. rüşvət.

verimli: onquc. karlı. qazanclıuğurlu. borclu. verimlik$_{qə}$. bərəkətli. qutlu. comət. suvli-sevli. bitginli$_{8}$. bərəkətli. bitgin il.

verimsiz: qısır. doğmayan.

verincək: **berincək**. **pərincək**. sadiq. içdən bağlı. fədakar.

veriş : bağış. barış. adaq. adax. verim. vermə. bolluq. bərəkət. sunqu. ehsan.

vermə : verim. veriş. bolluq. bərəkət.

vermək : qurmaq (qonaqlıq). düzənləmək. dartmaq. hidyə etmək.

verməz: çimri.

vəba : qırqın$_{8}$. qırlaqan. çuma$_{3\text{-}7}$.

vəcin : otağ.

vəç : təhər. yol. uğur. yağday.

vəfa$_{\textbf{fars}}$: < **bağ**. bağa. yapa. yaba.

vərdixan : verdixan.

vərdiş : endik. ğılıq. adət.

vərəm : < var. şişmanlıq. varlı. qabarıq. baramlı. dərimli. iğ. incəağrı. sill.

vərən : öz-verən. fədakar. fədayi.

vərtaxam: bulaşıq. aqan tökən. çaşıp yatan. veyran.

vəsl olmaQ. yAQalaşmaQ. yanaşmaQ. yetişmək.

vəş : pambık dənəsi.

vətəndaş: bir yurtda ötüb ösənlər.

vətəndaş: uyruq. yurtdaş. tapqaç$_{09}$.

vıcıq$_1$: batağ. batğa$_8$. zığ. palçıq. pislik. çamır.

vırnıxmaq: yoynuxmaq. yerindən olmaq.

vırxınmaq: < bur ; burxunmaq.

viran : < **örən**. **ör**: **kor$_{divan}$**. köz$_{divan}$ (yanqín yeri. yanqır qırıntılarının bulunduğu yer. yıkıntı qalık. yimirik$_3$. qırana.

viran : yıxıx. örən. qalma qalıntı. – örən kənt, məzar.

vişnə : albalı. siyə$_{3\cdot4}$. alça.

vözgə : ötə. üytgə.

vur : "**vur**" sözü **"ver"** sözüynən nə ilgisi olabilər.? !.

vuran : dövən. uran.

vurdi-gəldi: bardı-gəldi$_8$. vardi-gəldi. vurdu-oldu. əyər. şayət. gərəkirsə. birdən.

vurdumduymaz: alqı. alıq. qorxmaz.

vurdumduymaz: uçarı. uçar. iti.

vurdu-oldu: bardı-gəldi$_8$. vardi-gəldi. vurdi-gəldi. əyər. şayət. gərəkirsə. birdən.

vurqu : basım. güc. **vurqulu**: basımlı. üstün. hAkim. əksanli. çalqırt. əzici.

vurquç : vurma aləti.

vurqun : ayqın-bayqın. çoX bitgin. aşıq. hayran. böyük.

vurqun : **1**. vurulmuş. aşıq. **2**. basqın. ırqalama. yağmalama.

vurmaq : taxmaq. qoymaq. geyinmək. geydirmək. qurmaq. sürtmək. bərpa etmək. - ad **vurmaq**: taxmaq. - ata yavaşa **vurun**. - başına börk **vurmuş**. - başına tac **vurdu**. - bu ölkənin işləri kopoyoğluluq, aldatı üstdə **vurulub**. - əlivi saqqalıva **vur** təmizlə. - xanın ayağına baş **vurub**. - mıncıqlar **vurulmuş** kaftan. - nərdivən **vurub** ora çıxdılar. - onun qapusunda baş **vurub** yalvardılar. - səcdəyə baş **vurub** dilədi. - siz bizə arxa **vurun**, bizdə sizə. - taxmalar çiyninə **vurmuş**. - üzün toprağa **vurub** dilədi. - üzün yerə **vur** ondan dilə. çalmaq. sütmək (boya). boyamaq. sarmaq. dolamaq. süpürmək. döymək. ititmək. atmaq. daşlamaQ (bomba daşlamaq). burAQmaQ. qatmaq. qarışdırmaq. çırtmaq. çərtmək. kərtmək. cırmaq. bölmək. doğramaq. yerə yıxmaq. basmaq. əzmək. dağıtmaq. tökmək (yağış vurur). doldurmaq (yük vurmaq). saçmaq (gül vurmaq). salmaq (onu vurdular).

vurtut : alış-veriş. bazarlıq. üç yukarı beş aşağı.

vurub tutmaq : alt üsd eləmək.

vurulmaq: dalanmaq.

vurulmaq: yol birləşim. yaxınlıq.

vuruş : uruş. urus. qırış. uruz. savaş. döğüş. qırış. toq. tox. toxuş.

vuruş-gəriş: qarğaşa. basağa. vəlvələ.

vuruşma : savaş. sav. sava. döğüş.

vuruşma: çınqar. döyüşmə. gurultu.

Y

Ya : **1**. əvət. peki. olar. öylə. əlbəddə. elədi. bəlli (> bə'li) **2**. şaşılma bildirən simgə. - sən gəldin **ya** !. **3**. yay. kaman. **4**. əgər. şayəd. quşqu. şəgg oyandıran söz. **5**. yaxut. yaxut da. yada.

ya : (**ya** < met > **ay**). - **ayıq**. **ayıq**$_{ka}$. - **aylaq**. **aylaq**$_{dər}$. - **ayıq** bu **ayıq** o: **aylaq** o **aylaq** bu. - **ayıq** gələr **ayıq** gəlməz: **aylaq** gələr **aylaq** gəlməz. - **gərək** bu. **gərək** o. - **istər** bu.**istər** o: **istər** bu.**istərsə** o: **kalay** bu. **kalay** o. - **nə** bu.**nə** o. - **gərək olsa** bu. **gərək olsa** o: **gərəksə** bu. **gərəkməsə** o. - **olsa** bu. **olsa** o: **olsa** bu. **olmsa** o. - **yAQi** bu. **yada** o: **yAQi** bu. **yAQi** o: **islə** bu. **islə** o$_{4.5}$.

yab : **1**. <> **tap**. **yap**. **2**.$_{16}$ su yolu.

yaba : bax > **ya<u>v</u>a**. **1**. gengərək. iri. böyük. çatal uclu. ağac kürək ki. döğülmüş xərməni savurararlar. xərmən savurmağa ucu çatallı kürək.- **yaba əl**. **yaba ayaq**: böyük iri əlli. ayaqlı. - **yabasız xıman savrulmaz** : yaraqlan işin yaraqına: işin gərəyini yaraqla (: hazırla). **2**.kaş. ıslaq. yaş şey. **3**. **yapa**. **yapu**. yapı. oluşum. **4**. arac. ayqıt.

yabağı : bayağı.

yabAQ$_a$: yaş. ıslAQ.

yabaqu : yapqu. elbəy. elbəyi. böyük vali.

yabalaq : **yaplaq**. dayanıqlı. mətin. mütəhəmmil.

yabalamaq: **1**. savırmaq. qoğmaq. **2**. bulaşdırmaq. qarışdırmaq. **3**. atmaq.

yaban : **yavana**. **yavan**. **yalaq**. **1**. dış. dışarı. qıraq. çöl (otsuz. quraq). qır. qara (yer. topraq). **2**. yad. **3**. (< **yavan**). naşı: **tat** (= **yad**). **4**. yasav. asav. vəhşi. **5**. karsız. qudasız. yararsız. yaramaz. düşük. sülək. sapqın. **6**. lax. boş. oynaq. hərz. - **yabana ötmək**: səfehləmək. boş boş danışmaq. boşuna danışmaq. - **yabana gülüş**: çöpə gülüş. hər şeyə gülən. **7**. yabancı. alqazın. ası. vəhşi. **2**. yapan. yapıcı.

yabana : **1**. ülkər. asav. ası. ıssız heyvan. **2**. dışra. bayağı, adi olmayan nərsə. .

yabancı : yaban. yad. el. dəğişik.

yabançı : çət$_8$. çet. çit. sit $_{3.4.5}$. şetel. qırAQ. çətəl$_9$. yad. kəsəki$_8$. öcman. düşman. çet kişi: yad adam. çet yurd: yad ölkə.

yabaş$_9$: yavaş.

yabay : **1**. yapay. yapan. yapıcı. **2**. yapılmış. **3**. gödək$_8$. topas. bayağı. onğaysız$_8$. kopal. tübən.

yabayı : yavayı. yağı.

yabba : **çappa**. **tappa**. ayaqqabı. çarıq.

yabıqı$_{12}$: yerimək. gedmək.

yabıl : yapıl: rafiq. doslar arası. him bir. işə başamaQ. əməkdaşlık.

yabıldaq: çılpAQ. palansız. palansız.

yabır: **1**. yapıcı. əktif. çalışqan. **2**. gürəşçi. döğüşçü.

yabıt: yapıt. yapı. əsər. bina.

yabız$_9$: yavız.

yabqu : xaqan yardımcısı. bölgə yönəticisi.

yablaq$_9$: yavlAQ. kötü. yaraşıqsız.

YAD:**YAT**

YAĞ : YAQ

yah$_{15}$:. vicdan. mərhəmət.

yahalış:.yalnılış. yalınlış.

yahalma: < yalanğan < yalan. yapmacık.

yahalma: aldanma. yapalma. yasalma.

yahalmaq: {< yenilmək. yanamaq}. < **yan**. yanğılmaq (yanalmaq (n= h). (yalan: < yanğılış < yan. əyri. doğru olmayan. tərs). doğru olmayan. əyri. yanAQı. çarpıq) yasalma. yuğalmək. itmək. gaymaq. gorum-curum olmaQ yanalmaq. yanılmaq. yanqılışmaq. yasalmaq: qonulmaq. düzəlmək. qoyulmaq.

yahatmaq: yapma. yasama (qeyri adi olarAQ cürlənmə. düzətmə)

Yahey : **oxey**: şənlikdən. sevincdən çığırmaq.

YAX : **YAQ**

YAK : **YAQ**

yaQ : **yax**. (<> **yar**). **yağ**. **yak**. **yaq**. **cak**$_4$. **1**. yaraq. hazır : evlənməyə yAxlı. **2**. yar. yarar. fayda. ası. - **yaxcı iş**: yararlı, yarar verən iş. – **yaxlı** yemək: vitaminli yemək. – **yaxma** gülüş: barış gətirən gülüş. **3**. ışıq. yağıt. yAxıt. - günün **yAxasından**: günün ışığından. **4**. çağ. zaman. - **bu yAxda**: bu ayaqda. bu dəfə. bu zaman. **5**. yaxa. tərəf. darab. yan. yön. yol. cəhət. – hansı **yan yaxadan** geddi ?. – **yAxından**: tərəfindən. – bizim **yaxdan** ellərə salam. həq **yaxın** (tərəfin) tutan, yayılılar. - **tün yax**$_4$: quzey. şumal. – **gün yax**$_4$: güney. cinub. – **qiblə yax**$_4$: batı. qurub. – **sol yax**: sol yan. – **onğ yax**: sağ əl. – **bu yaxa**: bu yana. – **arı yaxdan** gələnlər: ötə, uzaq, ayrı yerdən gələnlər. – ev **yaxa** ged. ev yana. ev istiqamətində. evə doğru. – siyası **yaxdan** uğurlu. – sənə **yax** olaram: sənə tərəfdar olaram. – **yaxların** yığdı: tərəfdarların yığdı. – mənə **yax** olan gəlsin, olmayan uzaq gedsin. - **yaxınan**: **yaxından**: cəhəddən. – iç **yaxdan** yaman, üz **yaxdan** iyi: içdən kötü, üzdən yaxşı. – biçim **yaxdan** yapımlı: görşdən gövdəli. – yaşam yaxı: yaşam yolu. – sən **yaxıdan** çox qayqılandım: səndən ötrü çox düşündüm. - nə **yaxıda** qonuşursuz: nədən, nə barədə danışırsız. - **yalpı yak**: ortaq, müştərək yan. – **burc yaxı**: açının (zaviyə) yanı, dalı, zili. **6**.$_4$. şəxs. kimsə. kişi. - üçüncü **yax**: üçüncü şəxs. **ağ yaxa**: bilgili. əkinli. aydın. – **ağ yaxalar**: aydınlar. – **alqa yaxa**. **7**. may. suvlu. kərə "**yağ**" kəlməsini "**yav**" (**yağı** > **cav**: düşmən) sözüynən qarışdırmıyın. **8**. arı$_5$. yağlı: arılağ$_5$. - **su yağı**: süzmə yağ: duru yağ: boş yağ. sərik yağ: sarı yağ. - **yağ bağır**: **yağçamur**$_{16}$. ətlə yağ ilə dolmuş bağırsaq.

Yaqa : **Yaxa**. (< **yan**. **yanqa**. **yanğa**.). **1**. geyimdə boyunu çevrələyən bölüm. - **yaxa** almadan ətək verməz: çox çimri. xəsis kişi. - **yaxasına** oxşar: uşaqan$_5$. yaraşan. yaraşır. uyar. uyqun. münasib. - **qayırma** yaxa: qəddax, yatıq, büküləbilən yəxə. – dik **yəxə**. yaxa qarmaq$_4$:{1. (hirsdən) yaxasın tutub (silkəmək)}.- iki əli yaxasında: iki əli boynunda qalmaq, heyrətdə olmaq.}. – can evində, **yaxa** əldə olsa: sağlıq olub, işlər düz gedirsə. **2**. baqa$_8$. başa. yan. yAQ yana. çət. uç - çək$_9$. qıraq. qıyı. son. sınır. uc - bucAQ. mərz. - **suyaxa**: ırmaq qıyı- sı. - dəniz **yaxa**: dəniz qıyı- sı. - **yaxa yaxıya**: qarşı qarşıya. **3**. tərəf. qol. - **buyaqqa**$_9$. buyana. - **yaxalı**: yanlı. - **buyaqtin**$_9$: buyandan. **4**.$_{14}$. yaxın. bitişik. **5**. yama. yan. qıyı. sahil. - çayın **yax**asında: **yam**asında : **yan**ısında. **6**. sınır. sınır bölgəsi.

yaqacıq : **yağacıq**. dağ ətəği.

yaqadur : yağış. yağmur. bolluq. bərəkət.

yaqaq : **yaxaq**. ucu odlı oq.

yaqalanmaq: **yaxalanmaq**. birgərmək. aldırmaQ$_9$. faşolmaQ. çaldırmaQ.

yaqalaşmaq : **yaxalaşmaq**. (< **yax**. **çak**. **çək**). çəkələşmək. çəkişmək. yaxa yaxaya gəlmək$_{tarama}$: boğaz boğaza gəlmək$_{tarama}$: yaxa paça olmaq$_1$. da'va etmək. - iki qoşun **yaxa yaxaya** gəldilər.

yaqan : **yaxan**. **yağan**. **1**. yaxaq. ucu odlı oq. **2**. yağan. yağmur. **3**. göydən inən nur. **4**. yaxın. yar. canan. **5**. yaxıcı. yox edici. **6**. **yanqan**$_{ka}$. fil. – **yağalanlar** cırlaşır: fillər ağlaşır, cığıraşır. **7**. yaxarca. sıcaqlığı artıran.

yaqanc$_8$:. < yAQ. yok. yAQınc (yoxun). yAQınclı. yapışıcı. müsri.

yaqaran: **yaxaran**. ötər. ötügən. diləyən. dilənçi. diləkçi. istəyən. duaçı. ötəmiş. otamış. ricacı.

yaqarca: **yaxarca**. yaxan. sıcaqlığı artıran.

yaqarı : **yaxarı**. ödük. ötnü. istək. dilək. dua. niyaz. arzu. rica. istirham. yaxarış. dilək. dua. təmənni.

yaqarıcı: **yaxarıcı**. ödügət. istəkçi. duacı. yağrıqçı.

yaqarış : **yaxarış**. yaxarı. quptan. dua. niyaz. dilək. dua. təmənni. yaqrıq. yağrıq. ödün. umuc. umunc. istək. bəklənti. bəklənti.

yaqarma: **yaxarma**. yovraq. yalvarma. dua. yasan. istək. dilək.

yaqarmaq: **yaxarmaq**. yalvarmaq. sevkəmək. istəmək. tapşırmaq. tapışdamaq. ısmarlamaq. daluqmaq. dalubmaq. damaqmaq. arzılamaq. diləmək. imrənmək. özləmək. susamaq.

yaqasız : **yaxasız**. utanmazca. hayazızca. tapataq.

yaqaşmaq: **yaxaşmaq**. yaraşmaq. yanğaşmaq. əkəşmək.

yaqav :. tək. yalnız.

yaqcarmaQ:. yağa düşmək. yağı süzmək.

yaqcı : **yaxcı**. (**yAQti** < **yAQ**. görməyə kömək edən ışıq). **1**. yAQşı. yAQmaq. yaxşat. yağşat. yAQşat. **2**. yAQıçı. yAQımlı. yaramlı. söykümlü. tartımlı. açıq. durı. iyi. gözəl. doğru. görkən. onqat. önəriş. iyi. - **yaxcı pis**. kor topal. iyi kötü. **3**. xudi. qutlu. iyi. **4**. yAkıtı (< **yAQ**. yAxmaq: ışıqlıq. təmizlik. arılıq) ışıq. - günəş **yAkışı**. iyi. gözəl. doğru. **5**. sinər. şux. tox. uğur. unqun. usnaq. ünay. ürəkli. yaxımlı. yaxın. yarar. yaraşıqlı. yarıq. ağürək. açıq. apıla. oxşar. öykək. istəkli. aytam$_{5}$. baruş.

yaqcı görməyən : **yaxcı görməyən**. kəhləz. key.

yaqcılıq : **yaxcılıq**. ağalıq. idilik. iyilik.

yaqcılıq: **yaxcılıq**. yağtılıq. açıqlıq.

yaqcımaQ:. yağlanmaQ.

yaqcumur :. yağlı əkmək.

yaqçamur$_{16}$:. **yağ bağır**. ətlə yağ ilə dolmuş bağırsaq.

yaqdan: **yaxdan**. yığılan yer. yığlan.

yaqdar :. (buyruq haləti): aydınlat. aç. görsət. başla. yaşla. faşla. faş et. daşla.

yaqdarmaq: **yağdarmaq**. yAQdırmaq. yağmaq. yandırmaq. ışıqlatmaq.

yaqdaş$_{3}$: **yaxdaş$_{3}$**. ayıldaş$_{5}$. yerləş$_{4}$. eldaş$_{8}$. yutdaş.həmşəhri.

yaqday :. (< **yak**: yaka. yaxa. qıraq. yan. çevrə). nəsənin oluşn, varlığın quşatan, tutan, **yaxalayan**, çevrələyən, çulqayan durum. yaraq. bir şeyin olunmasına gərəki (şırayit). quram. vəziyyət. imkan. olağan. mihit. çevrə. buran. ortam. gediş. yaraş. qoşul. hava. durum. duruq$_{14}$. kef hal. hal - əhval. ləhzə. an. yaşday. – ev **yağdaylı** işlər: ev içində yaşamı **yaraşdıran** işlər. – hər bir şeyin gəlişməsi, **yağdayından** asılıdır. – işin yağdayın qara: işin gedişatına bax. \ **çağday**: nərsəni bürüyən zaman. içində bulunan zaman. keçinəcək.

yaqdaylı:. **çağdaylı**. tutumlu. imkanlı. şərayitli. - **yağdaysız**: imkansız. imkanı olmayan.

yaqdıbasan:. **yağdı-basan**. düşmana basqın yapan. düşmanı yox edən.

yaqdırmaq: **yağdırmaq**. yanğdırmaq.

Yaqdu : **Yağdu**. (< **yal**. **yAQ**). **yaqtu**. yaldıramaq. ışıq. ıldırım.

Yaqduluq: **Yağduluq**. **yaqtılıq**. yaldıramlıq. ışıqlıq. ıldırım ışıqı.

yaqent: fil. caqanmo$_{12}$.

yaqı : **yaxı**. yAQu. altun.

yaqı basmaq : **yaxı basmaq**. dağlamaq.

yaqı otu : **yaxı otu**. qındıra otu. həsir otu. bir qamış cürü.

yaqı : **yaxı**. **1**. (< **yaxı**: yanqılı. odlu. qızmış).düşman. el elə yağı oldu. yağılıq: düşmənlik. **2**. günəş. **3**. yaxma. tutuşdurma. (*1* < **yarmaq**: **yaxmaq**: açmaq. *2* < **çav**. **sav**: səs. söz.). yay. çav. sav. bildiri. xəbər. e'lan. - **yaxı** yaymaq: bildiri, e'lan yapmaq. - **yaxıcı**: **yayıcı**. **savçı**. mübəlliğ. **4**. ilaç. em. im. **5**. yaxıcı. yaxan.

yaqıcı : **yaxıcı**. tutuşturan. alışdıran. yaxan.yandıran. köydürücü. yaxşı. yAQımlı. yaramlı. söykümlü. tartımlı.

yaqıçı : **yaxıçı**. **yaxlavçı**. **1**. dayaq. azarkeş. tərədar. dəstəkçi. yanbasan. **2**. yanlı. qorucu. savıçı. **3**. yaxşı. məqbul.

yaqıqmaq: **yağıqmaq**. yağı olmaq. öclənmək. düşmanlaşmaq.

yaqılamaq: **yağılamaq**. (< **yağı**). qızdırmaq. yağı edmək.

yaqılan : **yaxılan**. yaxıt. enerji. ısı qaynağı.

yaqılı : **yaxılı**. yaxılı. yoklu$_{8}$. bulaşıq.

yaqılmaq: **yağılmaq**. yayılmaq.

yaqım : **yaxım** **1**. çəkim. alım. incik. xoş. cazibə. **2**. tərbiyə. eğitim. mədəniyyət. **3**. yoxum. şəfa. **4**. suyluq. ışıklık. yağtılıq. yağış.

yaqımlı: **yaxımlı yatımlı**. yAQıçı. yokımlı. yaxşı. yaramlı. söykümlü. tartımlı. dartımlı. çəkici. uyğun. gönlü oxşayan. şirin. dadlı. xoşagəlim. hüzürli. yapışan. alımlı. qolay. alay. alaylı. əlverişli. tutumlı. tutuşli. otlı. gərəkli. məzəli. yapımlı. göyülli. sevimli$_{3.7}$. gəlişli$_{8}$.sevimli$_{3.7}$. görkəmli. görməgəy$_{8}$. görüklü. məzəli. cəzzab. batqın. batnıq$_{8}$. sevimli. simpatik. ruhlu. gözəl. uyqun. bəsil. bəsli. möhkəm. yaxci.tə´srili. yokumlu. yararlı yokumlı yemək. əli yokumlu: açıq əl.

yaqımlıq: **yaxımlıq**. gözəllik. simpatik. batqın. batnıq$_{8}$. sevimlik. ruhlu. uyqunk. görk$_{9}$. yAxışıqlıq.

yaqımlılıq: **yaxımlılıq**. xoşamaylıq.

yaqımnataq$_{14}$ yaxımnataq$_{14}$:. yAQınlaşdırmaq.

yaqımsız: **yaxımsız**. yoqumsuz. məzəsiz. könülə yokmayan. irgənc.

yaqın : **yağın**. **yaxın**. (**y** <> **s**) bax > **sayın**. **1**. yan + qın. yayuq. bəri. üz bə üz. **2**. qolay. çəmə. **3.**$_{3.7.}$ yaxci. **- yaxınlı**: xeyirxah. **4.**$_{5.}$ basıv. batıv. bazım. alıbet$_{5.}$ qeyrət. cəsarət. yetgin. yeyin. uyuş. ərdəm. güc. inanc. damar. dağarcıq. **5**. istək. dilək. arzu. kösnü. əğilim. qiptə. **6**. sərt. bətər. bol. var. bərəkət. quvvət. enerji. **7**. arxa. əsirgəmə. gözətmə. qoruma. saxlama. savınma. saxınma. qollama. müdafiə. **8**. **yaxını tutmaq**: cini tutmaq. alınmaq. darılmaq. hırçınb qırçınmaq. inatlaçılı. uyuşmazlıq edmək. (**#** *gəvşək. laçqa. pörsük. sarqıq. yumıaq. özənsiz. sorumsuz. tənbəl. ilgisiz. bezgin. işsiz. halsız. hımbıl. lapaçı. mızmız. savsaq. tutuq. uyuntu. üşəmgənc. yavaş. ağır canlı. ağır qanlı.qısqısız. ərdəmsiz.).***9**. bir şeyə uyqun çağ, qoşut. **10**. yağış. **11**. yanı başında. yanbaş. yanında. sadiq. bağlı. bağla. bəfalı. **12**. anat. qohum tanış.

yaqın$_{12}$: **yaxın$_{12}$**. nəyə.

yaqınan: **yağınan**. yanından. $_{met}$ (ya = ay) < aynından: çevrəsindən. dövrəsindən.

yaqınçı : **yaxınçı**. ərdəmli. işçi. əməkçi. çalışqın. özənli. qeyrətli.

yaqınlamaq: **yaxınlamaq**. qorumaq. savınmaq. bax > yaxın.

yaqınlaşdırmaq: **yaxınlaşdırmaq**:. ilələşdirmək. anlaşdırmaQ.

yaqınlaşmaq: **yaxınlaşmaq**:. **1**.cütləşmək.qolaylaşmaq. yanaşmaq. yandaşmaq. birləşmək. odlaşmaq. yapınlaşmaq. qovuşmaq. tapışmaQ. buluşmaq. **2**. sızlaşmaq. şikayətləşmək. birbirinə yada birbirindən sızlanıb şikayətlənmək.

yaqınlı: **yaxınlı**. üzlü. sırnaşıq. sulu. cıvıq. kaprisli. şımarıq$_{1}$.

yaqınlıq etmək: **yaxınlıq etmək**. sevişmək.

yaqınlıq: **yaxınlıq**. **1**. aşnalıq. isnəşlik. isiklik. ürəkdəşlik. **2**. uçru$_{5}$. uçruş$_{9}$. ucraş. yoluğ$_{5}$. irtibat. vəslət.

yaqınma: **yaxınma** şikayət. sızı.

yaqınmaq: **yaxınmaq**. **1**. (< **yanq**maq: **yan**maq). şikayətlənmək. sızlanmaq. **2**. (< **yax**. **yak**. **yax**ınlaşmaq). yaxınında durmaq. birinə yaxınlaşmağa, içini, ürəyini əldə edməyə çalışmaq. yaltaqlanmaq. bir şeydən asılmaq. sürtünmək. **3**. < **yar** = **yağ**: **yaxşı**.). yaxşınmaq: yaxşı yarlı, xoş, uyqun, yararlı görünməyə çalışmaq.

yaqınsız: **yaxınsız**. yaraşıqsız. gəvşək. özənsiz. diqqətsiz. bax > # yaxın.

yaqın-yeşin: **yağın-yeşin**. çul çuxa. bağlı buğlı.

yaqır : **yağır**. **1**. (1. < **ağmaq**: şişmək. **ağuq**: şişik. 2. < **yağlı**). ağrıq. şişik. qoğzağ. atın ağrıqı. yağırı. kürəyi. atın iki omuzu arasındAQi **yağlı** yer. **2**. yağırğadan quyruq soxumuna gələn arxa sümük.**3**. yağırlıq. təğəlti. yünə: yəhərin altına qoyulan keçə. **4**. arxa. sırt. təkiz. yalama. saf. **5**.$_{ka.}$ heyvanın sırtında (belindıki) oluşan yara. **6**.

topraq. 7. **yağrın**. (< **yarıq**. **yarqın**). odun. ağac. ət yarmaya yarıyan kündə. kötük. qutuq. yarmaca. iri ağac kəsiyi. yaslac. yastıqaç. yastağac. bazı. bölük. çigin. düğün. çotuq. qöqdə. ərgənək: əkgin. əyin gövdə. kosat.

yaqırlıq : **yağırlıq**. yəhərin altındAQi keçə.

yaqısavan: **yağısavan**. (yağı - savan). **yağısıyan**. (yağı-sıyan). yağı, düşmanı püskürdən, qovan, savan. dəfedən.

yaqısıyan: **yağısıyan**. yağı-sıyan. **yağısavan**. (yağı - savan). yağı, düşmanı püskürdən, qovan, savan. dəfedən.

yaqış : **yaxış** . (< **yax**ınmaq). **1**. yalvarış. (> **xahiş**$_{fars}$). **2**. (< **yak**. **yar**). yaraşıqlıq. uyqunluq. xoşluq. göyçəklik.

yaqış : **yağış**. < yağ (ağmış. axarlı. ərimiş. yumuşanmış. yağ kimi olmuş) # qar: bərk.

yaqış : **yağış**. yaqadur. yağmur. bolluq. bərəkət. suluq. ışıqlıq. yağtılıq.

yaqış : **yağiş**. **yaqız**. **yavuz**. cəsur. gözüpək. güclü. yaman. yiğit. qara. yanaraq qararmış. qaraya çalan.

yaqışdırmaq: **yaxışdırmaq**. yaraşdırmaq : gözüm yaraşığı. yAQışı.

yaqışıqlı : **yaxışıqlı**. **1**. baysan. göstərişli. ləvənt. göyçəli. gözəl. **2**. qonur. çapan. cəvan. gənc. **3**. onat. uyqun. sağlam. tırvaq. tıvraq. dıvraq. cıvraq. **4**. alımlı. dayanıqlı. töqmən. çəkici. **5**. böqlü. şik. iyi geyimli. **6**. gözəl. göstərişli. görkəm$_9$.

yaqışıqlıq: **yaxışıqlıq**. gözəllik. simpatik. batqın. batnıq$_8$. sevimlik. ruhlu. yaxımlık. uyqunk. görk$_9$.

yaqışıqsız: **yaxışıqsız**. kifir. bədbeşir$_9$.

yaqışlı : **yaxışlı**. (< **yak**. **yar**). uyqun. göyçək. xoş.

yaqışmaq : **yaxışmaq**. meyil etmək. yaraşmaq. ürkməmək.

yAQışmaq: yAxışmaq. uyqun gəlmək. iyi olmaq uyqun. yAQışan.

yaqışmaq: **yaxışmaq**. uyqun gəlmək. iyi olmaq. uyqun. yAQışan.

yaqışmaq$_{14}$: **yaxışmaq**$_{14}$. uymaq. alışmaq. tutmaq. adət etmək.

yaqıt : **yağıt**. **yaxıt**. ışıt: işıqlat. yarığ. yarıt. yaxılan. enerji. ısı qaynağı. - **yarığ**: carıq. ışıq. - **yarıtlan**. yağtılan. yağıtlan: ışıklan.

yaqıtlanmaQ: **yağıtlanmaQ**. aydınlanmaQ. yarıtılmaQ. carıqlanmaQ. yarıq görmək. yAQırtılıq. yarıyamaq.

yaqıtlıq : **yağıtlıq**. ıldırım.

yaqıya vurmaq : **yaxıya vurmaq**. qırağa. qırıya atmaq. - yel əsdi vurdu **yaxaya**.

yaqız : **yağız**. **yağiş**. **yaqış**. **yavuz**. (< **yanğa**maq: **yAQ**maq). **1**. qızarmış. yanıb qaralmış. əsmər. qara. tox boyalı. buğdayı. qaramtıl buğday boyalı. - bu atın qıç ayaqları ağ **yağız** səkildi. - **yağız** rəngli enenmi : əsmər at əxtələnmiş. - **yağız yer**: yAQız yer. qara yer. - **yağız at**: **qara yağız**: qara donlu at. - **yağız yer**$_{dərləmə}$: tamu. cəhənnəm. sin. **2**. dəri. - **yağız dəri**: əsmər. qara dəri. **3**. igid. cəsur. gözüpək. güclü. yaman. yiğit. **3**. qara. yanaraq qararmış. qaraya çalan.

yaqla: talan. yağma.

yaqlağu: **yağlağu**. yağlıq. yağ qızdırma. dağlama qabı.

yaqlamaq: **yağlamaq**. **1**. < **yay**. yaylamaq: yozdurmaq. əyib uyqunlaşdırmaq. **2**. şişitmək. bəsləmək. bərkitmək. **3**. **yaxlamaq**. qorumaq. savınmaq. bax > **yanlamaq**.

yaqlamışi: **yağlamışi**. **1**. yağlamaq işi. **2**. yağlanmış kimi. yağlıyıb övmək. yağlayıb ballamaq.

yaqlanmaq : **yaxlanmaq**. yAQlaşmaq.

yaqlaşdırmaq: **yaxlaşdırmaq**. yAxışdırmaq: tanrı duanı yAxışdırsın. dürüşdürsün.

